# "Zəfəri nurlandıran Nurlan"ın işığında...



**(Əvvəli ötən sayımızda)**

Sonra şəhidimizin bizə əmanət etdiyi körpəsi Məhəmməddən başqa ikinci əmanəti olan gözəl qızı, savadlı məktəbli balası Nurgül də atası ilə bağlı olan xatirələrindən danışaraq ürək sözlərini tədbir iştirakçılarına çatdırdı. Onun duyğulu çıxışı zalı lərzəyə salaraq uzunmüddətli alqışlara səbəb oldu.

Şairə Esmira Günəş də tədbirdə şəhidimizin anasına səslənərək şeir söylədi və Həqiqət ananı səhnəyə dəvət edərək ona şəhidimizə həsr etdiyi şeirin şəkilli variantını çərçivələnmiş haldahədiyyə etdi.

Tədbir çox maraqlı və axıcıkeçirdi, başdan-sona hər şey çox gözəl və tam Şəhidimizə və onun müqəddəs ruhuna layiq bir şəkildə idi. Lakin tədbir sona yaxınlaşan zaman mənim üçün daha gözlənilməz bir vəziyyət oldu. Tədbirdə Vətən müharibəsindəki media savaşımızda da hər zaman olduğu kimi başdan-sona Ordumuza və əsgərlərimizə dəstək olan, 27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin ilk günündə ilk kəndlərimizin azad olunmasını göz yaşları ilə müjdələyən çox hörmətli teleaparıcımız Jalə xanım Həsənli də çıxış üçün söz aldı. Çıxışında şəhidlərimizi bir daha yad edərək şəhid ailələrinə dəstəyindən danışan Jalə xanım çəkdiyi misalda şəhid olan qəhrəmanlarımızın atasız körpələrinin çəkdiyi əziyyət və bunun onların həyatına təsirindən söz açdı. Sonda mənə təşəkkürünü bildirdi, gözəl sözlər söylədi və uğurlar arzuladı. Jalə xanım ağır iş qrafikinin olmasına baxmayaraqtədbirlərini ləğv edərək kitabın təqdimatında iştirak etmişdi. Buna görə Jalə xanıma dərin minnətdarlığımı bildirirəm.

Tədbirdə bədii hissəyə də yer verildi. Dəyərli müğənnimiz Vüsal Hacıyev şəhidlərimizə, sonra isə şanlı Zəfərimizə həsr olunan mahnılar ifa etdi. Eyni zamanda Şuşadan olan müğənni "Qarabağ şikəstəsi"ndən bir parça ifa edərəkçıxışını sonlandırdı və səhnədən alqışlarla yola salındı.

Tədbirdə digər müğənnilər dəifalarını tədbir iştirakçılarına çatdırdıqdan sonra Niyazi adına Şuşa şəhər Uşaq İncəsənət Məktəbinin şagirdləri öz ifaları ilə tədbiri daha da maraqlı etdilər. 2 məktəbli şagird isə tədbirdə şeir söylədi. Onlardan biri "Ağlama, şəhid anası!", digəri isə mənim şəhidimizə həsr etdiyim və kitabda yer almış"Şuşanı ruhuyla fəth edən Nurlan" adlı şeiri səsləndirdi.

Sonda tədbirdə kiçik mükafatlandırma mərasimi oldu. Şəhidimizin qızı balaca Nurgülə iş adamı, hörmətli Mübariz Mənsimovun və "Odlar Yurdu" qrupunun adından "Xarıbülbül" heykəlcik-mükafatı təqdim olundu. Arzu xanım kitabımın bir nüsxəsini "Odlar Yurdu" qrupuna təqdim etdi. Həmçinin Arzu xanım "Dünya Azərbaycanlılarının Vətənpərvərləri" İctimai Birliyinin prezidenti çox hörmətli Nəsimi Qarabağlının adından məni diplomla təltif etdi. Kiçik əməyimin tədbir iştirakçıları qarşısında diplomla qiymətləndirilməsi məni son dərəcə sevindirdi. Buna görə şəxsən Nəsimi müəllimə dərin minnətdarlığımı bildirirəm. Arzu xanım mənə hədiyyə olaraq gül buketi də təqdim etdi. Mən isə onu şəhidimizin əmanəti, balaca Nurgülə verdim. Nurgül isə gül buketini şəhidimizin sevimli müəlliməsi Rima xanıma hədiyyə etdi. Şəhid nişanəsi balaca Nurgülün bu hərəkəti bir daha alqışlarla qarşılandı. Şəhidimizin müəlliməsi Rima xanım çıxışında göz yaşları ilə Nurlanla olan xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. Ümumiyyətlə, tədbir maraqlı olduğu ilə bərabər, çox duyğulu keçdi, mən özüm də daxil olmaqla tədbirdə iştirak edənlərin heç biri göz yaşlarına hakim ola bilmədi. Hər kəlmədə dualarla, duyğularla şəhidimizi yad etdik.

Şəhidimizin anası Həqiqət ana öz ailəsinin adından mənə "Şəhid leytenant



Nurlan Həsənovun ailəsindən Sevindik Nəsiboğluna xatirə" sözləri həkk edilmiş masaüstü qələm dəsti hədiyyə etdi. Əslində, bunu heç gözləmirdim, düzü, bir qədər utandım. Ödəməyə çalışdığım bu borcun şəhidimizin ailəsi tərəfindən bu qədər yüksək qiymətləndirilməsi mənə çox böyük stimul verdi, məni təsirləndirdi. Axı bu kitabı qələmə alarkən mənim heç kimdən zərrə qədər də olsa, təmənnam olmamışdı!? Axı bu kitab Vətən fədaimizin ruhuna təmənnasız olaraq hədiyyə edilmişdi...Əməyimə yüksək qiymət verdikləri üçün bir daha Həsənovlar ailəsinə dərin minnətdarlığımı bildirirəm.Ümumiyyətlə, o tədbir mənim üçün nə ilk idi, nə də son olacaq. Amma onu deyə bilərəm ki, həmin gün yaradıcılıq yolumda qarşılaşdığım, Allahın mənə sanki bir hədiyyə kimi bəxş etdiyi ən gözəl günlərdən, anlardan biri idi...

Tədbiri təşkil etdiyinə görə Şuşa Dövlət Musiqili Dram Teatrının rəhbərliyinə, tədbirin təşkilatçısı və aparıcısı Arzu xanım Əliyevaya, şəhidimizin ailəsinə və onunla birgə bütün şəhid ailələrinə, dəyərli tədbir iştirakçılarına, media nümayəndələrinə, ictimai və dövlət nümayəndələrinə, kitabın çap olunma prosesində və tədbirin təşkil prosesində əməyi keçən hər kəsə sonsuz minnətdarlığımı bildirirəm.

Əvvəldə də qeyd etdiyim kimi, Şəhidlərimizin yad edilməsi və xatirələrinin əziz tutulması yolunda görülən bu iş nə ilkdir, nə də son olacaq. Biz hamımız dünya durduqca hər əməlimizdə Şəhidlərimizi xatırlayacaq və hər cür zəhmətə qatlaşaraq, əlimizdən gələnin də artığını etməyə çalışaraq onların xatirələrini əbədiləşdirəcəyik.

Allah Nurlanımıza, o cümlədən bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

İcazənizlə çıxışımı siz hörmətli oxucularımın diqqətinə çatdırıram:

"Hörmətli tədbir iştirakçıları! Hər birinizi ürəkdən salamlayır, canı ilə, qanı ilə tarix yazan, qəhrəmanlıq dastanı yazan və dastana çevrilən şəhidimiz Nurlan Nadir oğlu Həsənovun mövludu, həmçinin haqqında yazdığım, sayca 6-cı kitabım olan "Zəfəri nurlandıran Nurlan" adlı kitabımın təqdimatına təşrif buyurduğunuz üçün Sizlərə təşəkkürümü bildirirəm. Bu gün kitab təqdimatı ilə bərabər, cənnətdə olan Şəhidimizin 3-cü mövlud günü də qeyd edilir. 32 il bundan əvvəl Şuşada bir körpə dünyaya göz açmışdı. Onun dünyaya göz açması o vaxt sadəcə, Həsənovlar ailəsi və onun qohumları, qonşuları və tanışları tərəfindən əlamətdar hadisə olaraq qeyd edilmişdi. Ailəsi onun gələcəyinə çox böyük ümid bəsləyir, onun uzun və sağlam bir ömür yaşayacağını arzulayırdılar. İndi isə həmin vaxtdan düz 32 il keçir. Lakin indi Nurlanın mövlud günü təkcə Həsənovlar ailəsində yox, bütün Azərbaycan torpağında qeyd olunur. Çünki 2020-ci ilin oktyabr ayının 1-də şəhid olan Nurlan həmin gündən təkcə, valideynlərinin yox, həm də öz Vətəninin sevimli oğluna çevrildi, əbədiləşdi, əbədiyaşar oldu. Vətən torpağına tapşırıldığı gündən o, Azərbaycan xalqının Vətən yolunda verdiyi şəhidi kimi hər yer, hər məkan və hər ailə üçün doğmalaşdı. Şəhidimiz ölümü ilə ölümsüzlük qazanaraq doğma xalqının unudulmaz bir şəxsiyyətinə, qəhrəmanına çevrildi.

Bu kitabın çap olunmasından əvvəl Şəhidimizin xatirəsinə "Zəfəri nurlandıran Nurlan" adlı məqalə yazmışdım. Məqaləm redaksiya heyətinin üzvü, eyni zamanda ən gənc müxbiri olduğum "Kredo" qəzetində və bir sıra saytlarda dərc olundu. Keçən ilin noyabr ayında şəhidimizin anası Həqiqət ana mənə müraciətində bildirdi ki, o, oğluna yazdığım bu məqalənin bir kitaba çevrilməsini istəyir. Şəhidimizin anası bununla mənə çox çətin və məsuliyyətli olması ilə bərabər, eyni zamanda çox şərəfli bir vəzifə verdi. O vaxtdan mən bu barədə materiallar toplamağa və yeni kitabımın çap edilməsinə hazırlaşmağa başladım. Nəhayət, bu ilin aprel ayında məqaləmin adını daşıyan "Zəfəri nurlandıran Nurlan" adlı kitabım böyük, eyni zamanda şərəfli əmək, zəhmət bahasına işıq üzü gördü. Kitab 140 səhifədən ibarətdir. "Zəfəri nurlandıran Nurlan" kitabında şəhidimizə həsr etdiyim eyni adlı məqaləm, "Şuşanı ruhuyla fəth edən Nurlan" adlı şeirim çap edilmiş, şəhidimizin ailə üzvlərinin, qohumlarının, iş, tələbə və döyüş yoldaşlarının, müəllimlərinin şəhidimiz barədə xatirələri kitabda oxucuların diqqətinə çatdırılmışdır. Sonda isə kitabda şəhidimizlə bağlı çəkilmiş fotoşəkillərə, ona aid sənədlərin fotoşəkillərinə yer verilmişdir. Kitabda hər bir xatirənin müəlliflərinin harada, hansı bir işdə və ya hansı zamanda olmasından asılı olmayaraq, şəhidimiz haqqında təsəvvürləri eyni olmuşdur: "Şəhidimiz Şuşa üçün, Qarabağ üçün, Vətən üçün sinəsini sipər edərək Şəhidlik Zirvəsinə yüksəldi. Onun arzusu valideynlərini, ailəsini və onunla birgə bütün xalqını Şuşaya, Qarabağa qovuşdurmaq idi." Mən inanıram ki, Şəhidimizin ruhu şaddır. Onun ruhu azad edilmiş Şuşamızın, Vətənimizin azad torpaqlarının ən uca zirvələrində dalğalanan üçrəngli bayrağımızla bərabər dayanıb.

İcazənizlə çıxışımın sonunda Şəhidimizə həsr etdiyim "Şuşanı ruhuyla fəth edən Nurlan" adlı şeirimi söyləmək istəyirəm.

**ŞUŞANI RUHUYLA FƏTH EDƏN NURLAN**

Şuşada doğuldu, içdi suyundan,
6 aylığında köçdü Şuşadan,
Doymamışdı Şuşanın qoxusundan,
Körpə ikən bezmişdi qaçqınlıqdan.

Həyatını Şuşa üçün yaşayan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Savadıyla ali məktəb bitirdi,
Zabit oldu, Vətənə xidmət etdi,
Həyatında bir çox arzuya yetdi,
Sonda, canın vətənçün fəda etdi.

30-u görmədən köçdü dünyadan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Nəinki o, Cənnəti fəth etmişdi,
O, Cənnətdən bu dünyaya gəlmişdi,
Bu dünya onunçün bir sınaq idi,
O, sınaqdan qəhrəmanlıqla keçdi.

Şəhid oldu, keçdi öz sınağından,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Döyüşə toy-bayrammış kimi getdi,
Cəbrayıl-Xocavəndi azad etdi,
Hər sözündə "Vətən sağ olsun" dedi,
Hər zəngində yenə təsəlli verdi.

Dedi: "Yaxşıyam, qalmayın nigaran",
Şuşanı ruhuyla fəth edən Nurlan.

Çoxlarını yandırdı Şəhadəti,
Həm yandırdı, həm də bir qürur verdi,
Bizlərə Zəfəri hədiyyə etdi,
Çox heyif ki, həyatdan vaxtsız getdi.

Zəfər kimi miras qalmışdır ondan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Bir qızı, bir oğlu ondan yadigar,
Gözümüz kimi dəyərlidir onlar,
Zəfərlə təsəllini tapacaqlar,
Şəhid atayla qürur duyacaqlar.

Onlar doymadılar atalarından,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Şəhidim, ruhunla döndün Şuşana,
Göstərdin gücünü cümlə-cahana,
Ömür boyu ruhuna duaçıyıq,
Borcluyuq biz Sənintək qəhrəmana.

Qürur duyur səninlə Azərbaycan,
Şuşanı ruhuyla fəth edən Nurlan."

**SEVİNDİK NƏSİBOĞLU**
Məktəbli, şair-publisist, AJB üzvü
21.05.2023